# MDB iştirakçısı olan dövlətlərin Statistika Xidmətləri Rəhbərləri Şurasının 72-ci iclası keçirilib

Mayın 15-də Müstəqil Dövlətlər Birliyi (MDB) iştirakçısı olan dövlətlərin Statistika Xidmətləri Rəhbərləri Şurasının videokonfrans formatında növbəti 72-ci iclası keçirilib.





Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqovun sədrliyi ilə keçirilən videokonfransda MDB Dövlətlərarası Statistika Komitəsinin sədri, üzv dövlətlərin statistika qurumlarının rəhbərləri və rəhbər müavinləri, MDB İcraiyyə Komitəsinin və Avrasiya İqtisadi Komissiyasının nümayəndələri iştirak ediblər.

Şuranın iclasında MDB iştirakçısı olan dövlətlərin Statistika Xidmətləri Rəhbərləri Şurasının 2024-cü ildə fəaliyyəti, MDB Dövlətlərarası Statistika Komitəsinin 2024-cü ildə gördüyü işlər, 2026-2027-ci illər üçün "MDB statistikasının inkişafı" layihəsinə dair təkliflər və digər məsələlər haqqında müzakirələr aparılıb, müvafiq qərarlar qəbul olunub.

***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 16 may (№100).- S.2.